**UOT 76.02**

**SEVİNC ƏSGƏROVA***

# AZƏRBAYCANDA DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASINDAN SONRA MEMARLIĞIN İNKİŞAFININ ƏSAS İSTİQAMƏTLƏRİ

*Məqalədə ölkəmizin müstəqillik illərində və sonrakı illərdə memarlığın inkişafının əsas istiqamətləri araşdırılmış, müasir dövr üçün memarlığın inkişafının formalaşdırılması yolları öyrənilmişdir. Memarlığın tarixinə, ötən illərin təcrübəsinə və yaradıcılığına müraciət müəyyən zaman çərçivəsində yeni memarlıqın axtarışına imkan yaradır. İqtisadi yüksəliş tempinə görə bu gün Azərbaycan dünya dövlətləri arasında birincilər sırasındadır. Azərbaycanın şəhərlərinin simasının yaxşılaşdırılması, rayon və qəsəbələrdə abadlıq işlərinin geniş vüsət alması bir faktdır Azərbaycanda müasir memarlıq mühitinin təşkili artıq fərdi layihələr üzrə tikilmiş kütləvi yaşayış məkanları ilə də xarakterizə oluna bilər. İstənilən mühit təşkilində müasir insanın rahat yaşaması naminə ona tələb etdiyi mühit təklif olunmalıdır.*

**Açar sözlər:** *müstəqillik dövrü, müasir memarlıq mühiti, müasir mühit həlləri, memarlıq abidələri, Qərb dizaynı, yüksək texnologiya.*

Məlum olduğu kimi, Azərbaycan xalqının mübarizliyi, əzmi və çoxillik arzusu, həmçinin dövrün əlverişli geosiyasi şəraiti 1991-ci ilin oktyabr ayında ölkəmizin öz dövlət müstəqilliyinin bərpasını reallaşdırdı. Bir müddət sonra Azərbaycan Respublikası müstəqil dövlət statusu ilə Birləşmiş Millətlər Təşkilatının, Avropa Şurasının bərabərhüquqlu üzvü oldu.

Azərbaycan 1991-cı ildə müstəqillik qazandıqdan sonra, 90-cı illərin sonlarından başlayaraq ölkənin tikinti sektorunda radikal dəyişikliklər baş verdi. Ölkəmizin bütün regionlarını əhatə edən iri miqyaslı tikinti işləri şəhərlərin və digər yaşayış yerlərinin arxitekur görünüşünün əhəmiyyətli dərəcədə dəyişməsinə gətirmişdir. 1990-2010-cu illər tikinti işlərinin kəskin sıçrayış və yeni texnologiya və tikinti materiallarının tətbiq edilməsi imkanlarının artması ilə səciyələnir.

Keçən əsrin 90-cı illərinin ortalarından başlayaraq ölkədə ümumi inkişafın, o cümlədən şəhərsalmanın tempi və həcmi artır, müasir çoxmərtəbəli yaşayış evləri tikilir, ictimai binalar yenidən qurulur, avtomobil yolları, müasir körpülər, idman qurğuları, otellər və sair müxtəlif təyinatlı obyektlər istismara verilir.

1990-cı illərdən sonra Azərbaycan ərazilərinin işğalı, yeni bazar iqtisadiyyatı, əhalinin məkan dəyişkənliyi prosesi 13 il ərzində yeni mühit təşkillərinə gətirib çıxardı. Ötüb keçən kapitalizmin yenidən qayıdış prosesini bir çox ölkələr kimi yaşayan Azərbaycan ərazisində bu gün “qaçqın şəhərciyi”, “zəngin fərdi yaşayış rayonu”, ticarət mərkəzləri, yeni parklar, bank və müəssisə binaları mühiti və s. məkan tiplərinə rast gəlinir.

1991-ci ildə dövlət müstəqilliyinin yenidən əldə olunması ilə Azərbaycanda olduğu kimi, paytaxt Bakı, bütün öz inkişafında obyektiv və subyektiv səbəblərdən bir sıra mürəkkəb problemlərlə qarşılaşdı [4, s.17]. Azərbaycan ərazisinin beşdə bir hissəsini işğal edən qonşu Ermənistanın təcavüzü nəticəsində meydana gələn bir sıra ən ciddi problemləri həll etməyə məcbur olmuşdu. Ən çətin məsələ isə öz doğma ocaqlarını tərk etməyə məcbur olmuş və demək olar ki, hər şeyini itirmiş bir milyondan çox qaçqın və məcburi köçünün mənzil probleminin aradan qaldırılması ilə bağlı məsələnin həll edilməsi idi. Qeyd etmək mütləqdir ki, artıq il 2021-ci ildir və Azərbaycan öz ərazi bütövlüyünü təmin edib. 2020-ci ildə müzəffər ordumuzun qələbəsiylə nəticələnən II Qarabağ müharibəsində ölkəmiz öz əzəli torpaqlarını düşmən tapdağından təmizləmişdir.

90-cı illərin əvvəllərində daxili siyasi qeyri-sabitliyin və keçid dövrünün iqtisadi problemlərinin hökm sürdüyü bir şəraitdə Bakının problemlərini həll etmək çox çətin idi.

Sovet hakimiyyətinin uzun qadağa illərindən sonra Bakıda ilk dəfə dini təyinatlı bir sıra binalar tikilmişdir. Bibi Heybət və Təzə-Pir dini-memorial kompleksləri bərpa edilmiş, Heydər məscidi inşa edilmiş, Hacı Cavad məscidinin yeni binası istifadəyə verilmişdir. Bakının müxtəlif hissələrində, eləcə də yeni yaşayış rayonlarında bir sıra məhəllə və rayon məscidləri istifadəyə verilmişdir [3, s.141].

Azərbaycan Respublikasında 1990-2010-cu illərin təcrübəsi ölkəmizdə şəhərsalma işinin yüksəlişinin şəhərlərimiz üçün əlverişli nəticələrini, onun dövlət milli statusunu əldə etməsini göstərdi. Azərbaycan Respublikasında bu dövrdə ictimai-inkişaf, həm də şəhərsalma inkişafına daha çox müsbət təsir edən amillər aşağdakılardır

- "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramının" uğurla yetirilməsi nəticəsində ölkənin daxili ümumi məhsulun yüksək səviyyəsi. Beş il ərzində real həcmi 2.6 dəfə artaraq 38 mlrd. Manat təşkil edib, adam başına düşən nominal səviyyəsi 5 dəfə artıq, qeri-neft sektoru 1.8 dəfə artıb. 2008-ci ilik yekunlarına əsasən qeyri-dövlət sektorunun olan payı 84.5% təşkil edib. Sənaye və kənd təsərrüfatı sahələrindəki artım müvafiq olaraq 2.5 və 1.4 dəfə təşkil edib;

- "şimal-cənub" və "şərq-qərb" istiqamətləri üzrə strateji əhəmiyyətli əsas geosiyasi mövqe. Bu gün Azərbaycan Respublikası dünyanın vacıb enerji regionu sayılır. Bir çox dünya dövlətlərinin və Avropa ölkələrinin maraqları burada bir- birinə maraqları burda bir-birinə toqquşur.

- həyat keyfiyyətinin inkişafı; "2011- cu il üşün BMT –nin Bəşəriyyətin Tərəqqisi haqqında İnkişaf Proqramı" nın hesabatını əhatə edən 169 ölkə arasında Azərbaycan son 5 il ərzində ən yüksək inkişaf tempinə çatan dövlətdir. Azərbaycan 2005-ci ildə 105-ci yeri tutsa da, 2010-cu ildə 67-cı yerə yüksəlmişdi. Nəticədə, Azərbaycan"insanın inkişafının orta səviyyəsi" ölkələr qurupundan çıxaraq, Brazilya, Türkiyə və Malaziya ilə bərabər"insan inkişafının yüksək səviyyəsi" ölkələri kateqoriyasına daxil edilmişdir [1, s. 197].

Müasir mühit həllərinin nisbətən yeni ixtisasçılar - memar-dizaynerlər tərəfindən yerinə yetirilməsi bu günün reallığıdır. Dizaynerlərin müxtəlif istiqamətlər üzrə müasir mühit təşkillərində parça-parça həllər şəklində şəhər mühitinin təşkilində sürətli şəkildə ixtisaslaşmaqdadırlar.

Bu bir faktdır ki, yeni ixtisasların yaradıcılıq yolları birbaşa şəhər mühitinin təşkilində sürətli şəkildə formalaşmaqdadır. Uzun illərin təcrübəsi nəticəsində şəhərsalma nəzəriyyələrinin ayrı-ayrı istiqamətlərində ixtisaslaşdırılmış kadrlar yetişmişdir. Bir əsrə yaxın Bakı və ona yaxın şəhər mühitlərində müasir dizayn elminin inkişafı ləng getmişdir [3, s.89].

Qərb dizaynı, təbii ki, artıq uzun illər təcrübəsini keçərək professional üslub və alətlərlə işləməyə alışmışdır. Məhz Qərb dizayn həlləri monopoliya yaratmaq üçün aparıcı qüvvə kimi istifadə edilmiş və edilməkdədir. Dünya ölkələrinin bu sahədə bizdən öndə getməsi yaradıcılığın bu sahəsində də mükəmməl biliklərə yiyələnmək tələbi irəli sürür.

Mürəkkəb bir cəmiyyətdə mürəkkəb bir sistem mövcuddur. Bu, ixtisasçının təbii obraza yaradıcı yanaşması, sifarişçinin iş potensialını hər vasitə ilə nümyaiş etdirməsidir. Təbii ki, əgər bu sistemin içərisində qeyri-ixtisasçılar da iştirak edərlərsə, onda tarixi şəhər və müasir şəhər mühitlərinin uzun illər araşdırılmış paralel təşkilləri problemlərsiz ötüşməyəcəkdir. Müasir memarlıqdakı elmi nəzəriyyələr öz praktiki həllini də tapmalıdır. Bakı və Azərbaycanın digər şəhərlərində yeniləşmə prosesində şəhər strukturlarının deformasiyaya uğramasına yol verməməlidirlər. Bunun üçün inkişaf etmiş ölkələrin praktikasına daima müraciət edilməlidir. Azərbaycanın iri şəhərlərinin ən yaxın 10 il müddətində yeniləşən memarlıq mühit problemlərinə

indidən proqnoz xarakterli məlumatlar verilməlidir.

Azərbaycanın müasir memarlıq mühiti problemləri daha çox paytaxt şəhəri Bakının timsalında seçilməkdədir. 70 illik tarixə malik olan Bakının yeni yaşayış rayonlarındakı memarlıq mühitinin ən az miqyasda dəyişməsi ümumi şəhər strukturunda daha ziddiyyətli qəbul olunmaqdadır. Mərkəzi və ətraf şəhər mühiti həllərindəki fərqli inkişaf Bakının yarı inkişaf prosesindən xəbər vermiş olur. Təbii ki, sahnmış geniş miqyaslı Səadət sarayları, Ticarət mərkəzləri, Heydər parkları, "yanacaqdoldurma məntəqələri" hardasa bu boşluqları doldurmaqdadır. Sadəcə Bakının mərkəzi rayon mühitlərindəki hündür və kiçik mərtəbəli yaşayış evləri kənar rayonlarda fərqli inkişafdadır [2, s.161].

Azərbaycan memarlıq mühitinin müasir problemləri bütün respublika ərazisində paralel xəttlər üzrə həll olunması vacibliyini nümayiş etdirməkdədir. Təbii ki, hər bir rayonun, vilayətin özünəməxsus xüsusiyyətləri (ənənəvi memarlıq, relyef, iqlim, sərmayə, əhalinin sabit sıxlığı və s.) yeni memarlıq mühitinin tənzimlənmə prosesinə öz təsirini göstərəcəkdir.

Müasir memarlıq mühitinin inkişaf prosesi yaşayış məskənlərində əhalinin məşğuliyyəti problemlərinin mövcud dövlət tərəfindən düzgün aparılması siyasətindən də asılıdır. Çünki müasir insanın normal iş yeri və şəraiti, onun istirahəti və arzusu, normal yaşayış məkanı müasir memarlıq mühiti inkişafını tənzimləyən faktorlar kimi çıxış etməkdədir.

Dünya təcrübəsi göstərir ki,  hər hansı bir yüksəktexnologiya sahəsində lider olmaq istəyən dövlət, şəhərlərin planlaşdırma quruluşunu formalaşdıraraq onu öz ərazisində inkişaf etdirməlidir. Bununla belə, şəhərin və onun texniki parkının geniş təşkili innovasiya dövrünün azalmasına, yəni ideya və hazırlanmadan məhsulun axırıncı həyata keçməsinə qədər vaxtının sürətlənməsinə səbəb olmalıdır. Texniki parkların yerləşdirilməsinin bu cür məsələsi ilə memarların, şəhərsalma mütəxəssislərinin texnoloq və ekoloqların birgə əməyi sayəsində bacarmaq olar. Azərbaycanın şəhərlərinin şəhərsalma quruluşunda, istehsalat və sahibkarlıq məktəb və eliminin qarşılıqlı əlaqələrinin daha dərin formaları öz təcəsümünü tapır ki, bunlarsız da XXI əsrin texnologiyalarının geniş realaşmağı mümkün deyil.

Müasir memarlıq incəsənət və ağılın, həm də çoxlu ağılların hesabına tikiləcəkdir [2, s.158]. Bu sözlər müasir mühit təşkillərinə birbaşa təsir edən faktoru açıqlaya bilər. Müasir mühit təşkilində ağıllar toplusunun mürəkkəbliyi və tələbi hər bir yaradıcılığa öz təsir "effektini" göstərir. Bu təsir uzun illərin kapitalist şəhərlərinin, indi isə Bakı kimi mürəkkəb formasiyalar dəyişkənliyi yaşayan şəhərlərin üzərinə düşmüşdür.

Təbii ki, Bakı və Azərbaycanın müxtəlif regional memarlıq mühitləri təşkilində yeniləşmə müasir dizayn və memarlıq həllərində görünməkdədir. Hal-hazırda müxtəlif funksional bina həllərinin yaratdıqları memarlıq mühiti dini, idman, bank, park, mehmanxana, "şadlıq evləri"nin timsalında sürətlə inkişaf etməkdədir. Bu, zamanın tələbidir. Lakin bu zaman heç bir an dayanmayacaq ki, biz yeni tikililərin memarlıq kompozisiya həllərindəki "yeniliyi" normal halla əvəz edək.

Böyük ənənəsi olan dini tikili - məscidlərin kütləvi vüsət alması mənəviyyata görə normaldır. Ancaq onların memarlıq kompozisiya həlləri həmişə qənaətbəxş deyildir. Bu tikilinin ənənəvi formalarında nisbət anlayışı funksional bina elementlərinə görə artıq tapılmış sayılmalı idi. Lakin bu gözəl həcm-fəza kompozisiyasına yeni kəsik nisbətlərin gətirilməsi, inşaat materiallarının düzgün seçilməməsi, onların ətraf mühitlə uyğunlaşdırılmaması çox təəssüf doğurur. Azərbaycan memarlığında məscid tikililərinin öz memarlıq dizayn ənənələri mövcud olmuşdur. Bu cür dini tikililər şəhər mühitində dominant kimi seçim qazancını özünə qaytarmalıdır. Müsəlman Şərq şəhərlərinin ümumi şəhər strukturlarmdakı ali yeri məscid tikililərini əsrlərdən - əsrlərə aparmışdır. Bu ənənəyə sadiq qalmaq məntiqli səslənməlidir [5, s.19].

Müstəqillik dövründə ölkənin nəqliyyat sektoru sürətlə inkişaf edir. Bu nəqliyyat sisteminin inkişafı böyük dövlət proqramı çərçivəsində həyata keçirilir.

Böyük Bakının regional inkişaf planına və uzunmüddətli inkişaf planına uyğun olaraq 5 xətdən ibarət Bakının metropoliten şəbəkəsində stansiyaların sayı 76, yolların uzunluğu isə 119 km. çatacaqdır. 53 yeni stansiya və 84 km yeni metro xətti çəkiləcəkdir.

Azərbaycan Respeblikası Prezidentinin 1999-cu il tarixli Fərmanı ilə "Məcburi köçkünlərin sosial inkişafı Fondu" yaradılmışdır. 2001-2010-cu illərdə bu Fond tərəfindən Neft Fondunun vəsaitləri hesabına 60 qəsəbə tikilib istifadəyə verilmişdir. Ümumi sahəsi 1,0 mln. kv.m. çox olan yaşayış evləri, 10 min şagird yerlik məktəb, 1500 yerlik uşaq bağçası, 110 çarpayılıq xəstəxana istifadəyə verilmişdir [2, s.20].

Bakının memarlığı tikilməkdə olan yüksək komfortlu yaşayış evləri, ən yüksək dünya standartlarına cavab verən mehmanxana kompleksləri, böyük supermarketlər, bank binaları, ofislər və s. ilə tədricən zənginləşdi. Bununla belə qeyd etmək lazımdır ki, bu binalar yerləşmələrinə, memarlıq formalarına, mərtəbəliliklərinə və rəng həllinə görə şəhərin müasir simasının yaradılmasında fəal rol oynayır. Hazırda Bakıda bir sıra dünya miqyaslı tikinti şirkətləri uğurla fəaliyyət göstərirlər (Şəkil 1).



***Şəkil1. Bakı şəhərinin mənzərəsi.***

**Mənbə:**https://bakucity.preslib.az/az/page/HMBF9ls30A

Beynəlxalq nəqliyyat-kommunikasiya layihələri çərçivəsində "XXI əsrin İpək yolu" adlanan layihənin həyata keçirilməsində Bakı olduqca mühüm rol oynayır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəməri istismara verildi. 2017-ci il oktyabrın 30-da istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu Trans-Avropa və Trans-Asiya dəmir yolu şəbəkələrinin birləşdirilməsini təmin etdi.

Yeni reallıqlar şəhərimizin inkişafının yeni şərtlərini diktə edir. Xüsusilə də mərkəzi sənaye zonasının, eləcə də "Qara şəhər" adlanan köhnə sənaye rayonunun sürətlə müasirləşdirilməsi "Ağ şəhər" yaşayış kompleksinin inşa edilməsi sürətlə davam etdirilir (Şəkil 2.).



***Şəkil 2. Ağ şəhər.***

**Mənbə:** https://bakucity.preslib.az/az/page/HMBF9ls30A

Bakıda son illərdə ideyasına görə maraqlı, formatına görə müasir və eyni zamanda da özündə milli xüsusiyyətləri birləşdirən inzibati, ictimai və yaşayış binaları ucaldılmışdır və hal-hazırda da bu cür binaların tikintisi davam etdirilir. Respublikanın hər bir vətəndaşı üçün müqəddəs olan yerdə - Şəhidlər xiyabanında "Əbədi məşəl" memorial kompleksinin ucaldılmasını xüsusilə qeyd etmək lazımdır. "Əbədi məşəl" memorial kompleksi Azərbaycanın ənənəvi memorial memarlığına məxsus ən yaxşı xüsusiyyətləri özündə birləşdirir.

Məqalənin nəticəsi olaraq qeyd edə bilərik ki, cəmiyyətin bəşər tarixi boyu ən kəskin, ağır qanunlarını yaşayan respublikamızda memarlıq mühitinin inkişafı öz axarı ilə getməkdədir. Bu prosesi saxlamaq mümkün deyil. Əhalinin inkişaf səviyyəsi, elm-texnika, kapital artımı bu prosesi təbii axını ilə aparmaq məcburiyyətindədir. Təbii ki, bu mürəkkəb və sürətli inkişaf prosesləri yeni yaradılan memarlıq mühit təşkillərində, tarixi şəhər mühitində problemlərsiz ötüşmür.

Uzun illərin sakit miqyaslı, orta nisbətli memarlıq mühitlərinə yeni dalğalar gəlməkdədir. Elmi-nəzəri, elmi-praktiki araşdırmalar göstərir ki, memarlıq mühitinin təkamül prosesində istənilən zaman "şüur" öz önəmli rolunu oynamışdır. Hər bir prosesin inkişafında yeniləşmə prosesi memarlıq və şəhərsalmanın qanunlarına, daha doğrusu sınanmış qanunlarına uyğun aparılmasını tələb edir. Müasir dövr üçün Azərbaycanın müasir memarlıq mühitinə bütövlükdə ənənəvi memarlıq mühiti kimi yanaşılma məntiqi daha dolğun səslənə bilər.

## ƏDƏBİYYAT

1. Ağazadə R. İbrahimli Y. Azərbaycan Memarlığı inkişaf yollarında. Bakı:Elm, 2012, 386 s.
2. BəkirovaT.Ş. Memarlıq mühitinin inkişaf təkamülü. Bakı, 2005, 424 s.
3. Əliyev N.Ə. Heydar Əliyev və Bakının memarlığı. Bakı: Ulduz, 2005, 224 s.
4. Əlizadə Q.M. Memarlıq nəzəriyyəsi və Azərbaycanda tikinti təcrübəsi. Bakı:1986, 426 s.
5. ƏzimovA.Azərbaycan memarlıq elementləri. Bakı, 2017, 398 s.
6. MəmmədovR.M., E.K.Əlizadə, T.N.Kəngərli. Azərbaycanın təbiət və memarlıq möcüzələri. Bakı: Şərq-Qərb, 2015, 337 s.

***Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin magistrı***
***E- mail: sevincesgerova2005@gmail.com***

**Sevinc Asgerova**

## MAIN DIRECTIONS OF ARCHITECTURE DEVELOPMENT AFTER RESTORATION OF STATE INDEPENDENCE IN AZERBAIJAN

The article examines the main directions of the development of architecture in the years of independence of our country and in the following years, the ways of forming the development of architecture for the modern period. An appeal to the history of architecture, the experience and creativity of the past years allows you to search for new architecture within a certain period of time. Today, Azerbaijan is among the first countries in the world in terms of economic growth. It is a fact that the improvement of the image of Azerbaijani cities, the expansion of landscaping in the regions and settlements, the organization of a modern architectural environment in Azerbaijan can already be characterized by public housing built on individual projects. In any environment, modern people must be offered the environment they need in order to live comfortably.

**Keywords:** *independence period, modern architectural environment, modern environmental solutions, architectural monuments, Western design, high technology.*

**Севиндж Аскерова**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ АРХИТЕКТУРЫ ПОСЛЕ ВОССТАНОВЛЕНИЯ ГОСУДАРСТВЕННОЙ НЕЗАВИСИМОСТИ В АЗЕРБАЙДЖАНЕ

В статье рассматриваются основные направления развития архитектуры в годы независимости нашей страны и в последующие годы пути формирования развития архитектуры на современный период. Обращение к истории архитектуры, опыту и творчеству прошлых лет позволяет вам искать новую архитектуру в течение определенного периода времени. Сегодня Азербайджан занимает одно из первых мест в мире по темпам экономического роста. Фактом является то, что улучшение имиджа азербайджанских городов, расширение благоустройства регионов и населенных пунктов, организация современной архитектурной среды в Азербайджане уже можно охарактеризовать государственным жильем, построенным по индивидуальным проектам. В любой среде современным людям должна быть предоставлена среда, необходимая для комфортной жизни.

**Ключевые слова:** *период независимости, современная архитектурная среда, современные экологические решения, памятники архитектуры, западный дизайн, высокие технологии.*

*(AMEA-nın müxbir üzvü Cəfər Qiyasi tərəfindən təqdim edilmişdir)*

**Daxilolma: İlkin variant: 07.02.2021**
**Son variant: 09.03.2021**